**Masallıda fəaliyyəti məhdudlaşdırılan ət kəsimi məntəqəsində aşkarlanan nöqsanlara dair məlumat**

**(22 may 2024)**

Daxil olmuş vətəndaş müraciəti əsasında Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Masallı rayonu, Aşurlu kəndində fəaliyyət göstərən ət satışı məntəqəsində plandankənar yoxlama keçirilib. Yoxlama zamanı sanitar-gigiyenik və sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu aşkar edilib. Belə ki, ət satışı məntəqəsinin qida təhlükəsizliyi qeydiyyatından keçmədiyi, məhsulların minimum keyfiyyət və təhlükəsizliyini təsdiq edən müvafiq sənədlərinin mövcud olmadığı, qida məhsullarının daşınması zamanı qanunvericiliyin tələblərinə əməl edilmədiyi, işçi heyətin tibbi müayinədən keçmədiyi və müvafiq gigiyena qaydalarına riayət etmədiyi, əllərin yuyulması üçün müvafiq qaydada yerləşdirilməsi zəruri olan əl yuma çanağının mövcud olmadığı və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib, qanunvericiliyin tələblərinə uyğun olaraq məntəqənin fəaliyyəti məhdudlaşdırılıb və icrası məcburi göstərişlər verilib.